2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Ramiz İbrahimovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 avqust 2024-cü il tarixli 28 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 12 avqust 2024-cü il

Mən, ekspert qrupunun üzvü Ramiz İbrahimov 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərdə 10 saylı Binəqədi üçüncü seçki dairəsi üzrə namizədliyi Azərbaycan Ümid Partiyası tərəfindən irəli sürülmüş Kərimli Nigar Bəybala qızının Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 avqust 2024-cü il tarixli 28 saylı müracətini nəzərdən keçirərək **m ü ə y y ə n e t d i m**:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinin və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın müəyyən etdiyi tələblərin pozulması ilə daxil olduğundan onu göndərən şəxsə geri qaytarılmasına dair rəy verilməlidir.

Müraciət daxil olduqdan sonra ərizəçi ilə əlaqə saxlanılmış, müraciətin Seçki Məcəlləsinin tələblərinin pozulması ilə daxil olması barədə ona məlumat verilmiş, iclasda iştirak etmək hüququnun olması izah edilmişdir.

Namizəd müraciətin partiyanın səlahiyyətli nümayəndəsi tərəfindən tərtib edildiyini, məzmunundan məlumatsız olduğunu bildirmişdir.

Namizədin müraciətində göstərilmişdir ki, "1 sentyabr 2024-cü il növbədənkənar parlament seçkilərində Ümid Partiyası tərəfindən 10 saylı Binəqədi üçüncü seçki dairəsindən namizədliyi irəli sürülmüş Kərimli Nigar Bəybala qızının sənədlərinə baxış zamanı 121 saylı Laçın dairə seçki komissiyasının üzvləri Azərbaycan Respublikasının Seçki Məcəlləsinin 19.4, 19.14, 31.1.1, 34.3, 34.4, 58, 59, 60-cı, 147 və 148-ci maddələrini əsas gətirərək onun namizədliyinin qeydə alınmaması ilə bağlı qərar qəbul etmişdir".

Müraciətin seçki qanunvericiliyinin tələblərinin pozulması ilə daxil olması və namizədin tələbinin aydın olmaması müəyyən edilir.

Seçki Məcəlləsinin 112.5-ci maddəsində seçki hüquqlarının pozulması ilə bağlı təqdim edilən şikayətlərə dair tələblər müəyyən edilmişdir.

Bu tələblər sırasında şikayət üçün əsas kimi Seçki Məcəlləsinin, digər qanunvericilik aktlarının pozulmasının güman edilməsi, güman edilən pozuntunun dəlilləri və ya pozuntunun nədən ibarət olduğunun izahı, şikayətçinin tələbi və sairə öz əksini tapmışdır.

"Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 2.5-ci bəndində göstərilir ki, əgər şikayətdə qeyd edilən şərtlərdən hər hansı biri yoxdursa və bu səbəbdən tələb aydın deyilsə, şikayət onu göndərən şəxsə geri qaytarılır.

Yuxarıda göstərilənlərə və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 2-ci hissəsinə əsasən **r ə y ə g ə l d i m:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə namizədliyi Azərbaycan Ümid Partiyası tərəfindən irəli sürülmüş Kərimli Nigar Bəybala qızının 10 avqust 2024-cü il tarixli 28 saylı müraciəti Seçki Məcəlləsinin və müvafiq Təlimatın müəyyən etdiyi qaydaların pozulması ilə daxil olduğundan onu göndərən şəxsə geri qaytarılsın.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Ramiz İbrahimov